# Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır

## Yeni Azərbaycan Partiyasının yaranmasının 21-ci il dönümü qeyd olunur

Müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm yer tutan Yeni Azərbaycan Partiyasının yaranmasından 21 il keçir. Bu 21 ildə Yeni Azərbaycan Partiyası çətin və şərəfli bir yol keçmiş, ümumxalq partiyasına çevrilmişdir.

Yeni Azərbaycan Partiyası 1992-ci ilin, yay-payız aylarında təşəkkül tapmağa başlamış, həmin ilin 21 noyabr tarixində Naxçıvanda keçirilən birinci təsis konfransında rəsmən yaradılmışdır. Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiya olduğunu keçdiyi 21 illik tarixlə sübut etmişdir.

Artıq 20 ildir ki, Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının iqtidar partiyasıdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə bu partiya Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilməsində fəal rol oynamışdır.



Bu gün Yeni Azərbaycan Partiyasının 600 min nəfərdən çox üzvü Heydər Əliyev siyasətinin layiqli davamçısı partiyanın sədri, ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin ətrafında sıx birləşərək doğma Azərbaycanımızın daha firavan gələcəyi uğrunda inamla irəliləyir.




Ölkəmizin hər yerində olduğu kimi yeni Azərbaycan partiyasının qabaqcıl dəstələrindən olan Qəbələ Rayon Təşkilatı da partiyanın 21-ci ildönümünü təntənə ilə qeyd edir.

21 noyabr 2013-cü ildə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri, sədr müavinləri, idarə heyətinin, şuranın üzvləri, ilk təşkilat sədrləri, partiya veteranları və fəalları yeni Azərbaycan Partiyasının yaradıcısı, ilk sədri dahi şəxsiyyət Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində yerləşən abidəsini ziyarət etmiş, önünə gül-çiçək dəstələri qoymuş və əziz xatirəsini yad etmişlər.

Yubiley tədbirləri davam edir.

**Qüdrət SƏMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranan partiyadır

Respublikamızın hər yerində olduğu kimi rayonumuzda da Yeni Azərbaycan Partiyasının yaranmasının 21-ci il dönümü böyük təntənə ilə qeyd olunur. Düz 21 il öncə Azərbaycanda yaranmış ağır durum yeni bir siyasi təşkilatın yaranma zərurətini meydana gətirdi. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra müstəqillik əldə etmiş Respublikalardan biri kimi Azərbaycanda da müxtəlif siyasi partiyalar və digər qurumlar təşəkkül tapmağa başlamışdır. Respublikamızda bu siyasi qurumların formalaşması prosesi 1988-ci ildən xalq hərəkatı gedişində başlanmış və 1990-cı ilin əvvələrində bir sıra təşkilatlar yaranmışdır.

Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr Respublikamızdakı vəziyyəti daha da ağırlaşdıraraq, təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi və sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanımış insanları son dərəcə narahat edirdi. O, zaman çox ağır durum yaranmışdı. Ölkə çoxsaylı problemlərlə üz-üzə qalmışdı. Bütün sahələrdə böhran başlamışdı və Azərbaycanın dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi var idi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər, bu məqsədlə xalqın sınanmış lideri və müdrük oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər.

Məhz belə bir vaxda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91 lər" in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu.

Xalqımızın dahi oğlu, tanınmış dövlət xadimi və böyük təcrübəyə malik Ümummilli Lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi.

Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamanki hakimiyyətin manеələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi, 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis Konfransını orada keçirməyə nail oldular.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu Konfrans 1992-ci il noyabırın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar verdi, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfrasda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Habelə, partiyanın Siyasi Şurası, idarə heyəti və sədrin müavinləri seçildi. Beləliklə müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında Azərbaycanda hüquqi dövlət, sabit və sosial yönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiyadır.

Yeni Azərbaycan Partiyası 1992- ci il dekabr ayının 18-də Ədliyyə Nazirliyində qeydiyyata alınmış və Azərbaycanın bütün rayonlarında qısa müddətdə rayon təşkilatları yaradılmışdır.

Yeni Azərbaycan Partiyası keçdiyi bu 21 ildə xalqın ümidlərini doğrultmuş və ümumxalq partiyasına çevrilmişdir. Hazırda partiya sıralarında 610 min 40 nəfərdən çox üzv vardır.

Yeni Azərbaycan Partiyasının 1992-ci ilin noyabrında təsis konfransının keçirilməsindən sonra Qəbələ rayonunun ziyallıları, qabaqcıl insanları dövlətçilik maraqlarını və xalqın mənafeyini rəhbər tutaraq partiyanın Qəbələ rayon təşkilatını yaratmaq üçün fəaliyyətə başladılar. Bu insanlar çox ağır ictimai-siyasi vəziyyətə və təqiblərə baxmayaraq, o cümlədən özlərinə və ailələrinə qarşı törədilə biləcək hər bir təxribatı, təhdid və təziqləri göz qabağına alaraq qarşıya qoyduqları məqsədə çatmaq üçün tam səfərbər oldular.

Beləliklə, 1993-cü il sentyabr ayının 19-da Qəbələ rayonunda Yeni Azərbaycan Partiyasının rayon təşkilatı yaradıldı. Təssis konfransında Əhmədiyyə Məmmədov yekdilliklə Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının sədri, Qüdrət Səmədov və Tahir Hacıyev isə müavini seçildilər.

Həmin dövrdə Qəbələ rayon təşkilatı 10-12 ərazi ilk partiya təşkilatında 150 nəfər üzvü birləşdirirdi. Fəxrlə qeyd etməliyik ki, ötən 21 ilə yaxın müddətdə Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı böyük inkişaf yolu keçib, öz sıralarını daim genişləndirib, partiyamızın proqram və prinsiplərinə uyğun olaraq qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirib, öz işini fəaliyyətini daim canlandırıb.

Hazırda Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı 76 ərazi ilk partiya təşkilatını birləşdirir. Üzvlərimizin sayı 5577 nəfərdir. Bunların 35,1 faizini gənclər, 39,2 faizini isə qadınlar təşkil edir.

Partiyanın keçdiyi bu şanlı 21 il ərzində keçirilən bütün Prezident, parlament seçkilərində və referendumlarda, eləcə də bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı fəallıq göstərmiş, həm seçicilər arasında maarifləndirmə işinin həm də partiyanın təbliğatının aparılmasında bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Ötən dövrdə Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət, o cümlədən regionların sosial-iqtisadi inkişafı, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması, xarici siyasət sahəsində reallaşan tədbirlər və qazanılmış uğurların xalqa çatdırılması məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir. Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

**Elçin TAĞIYEV,**
**YAP Qəbələ Rayon Təşkilatının aparat rəhbəri.**